**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 26 "09" Fevral **2016-cı il**

**Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Rəhbərinin "Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında" 22 yanvar 2016-cı il tarixli 6 saylı Sərəncamını, Bakı Şəhər İcra Hakimiyyətinin başçısının "Bakı şəhərində Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsi haqqında" 03 fevral 2016-cı il tarixli, 31 saylı Sərəncamını və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22-ci bəndini rəhbər tutaraq

**Q ə r a r a  a l ı r a m:**

1. Binəqədi rayonunda Xocalı faciəsinin iyirmi dördüncü ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.
3. Xocalı soyqırımının iyirmi dördüncü ildönümü ilə əlaqədar görülən işlər haqqında məlumatı 04 mart 2016-cı il tarixədək Bakı Şəhər İcra Hakimiyyətinə təqdim edilsin.
4. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova həvalə edilsin.

**Xaləddin İsgəndərov**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**

**Elnur İmanov**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**"09" Fevral 2016-cı il tarixli 26 saylı**
**Sərəncamı ilə təsdiq edilmişdir**

**Xocalı faciəsinin iyirmi dördüncü ildönümünün keçirilməsinə dair**

**TƏDBİRLƏR PLANI**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Rayon ictimaiyyətinin Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsinə ziyarətinin təşkili | Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon Təşkilatı, Binəqədi rayon Gənclər və İdman İdarəsi | İ.Süleymanov<br>V.İsmayılov<br>R.Göyüşov<br>E.Dadaşov<br>Y.Hüseynov<br>Y.Əliyev<br>E.Rəhimov<br>E.İmanov<br>Q.Bayramov | 26 fevral 2016-cı il |
| 2. | İdarə və təşkilatlarda, mədəniyyət müəssisələrində, ali və orta ümumtəhsil məktəblərində Xocalı soyqırımına həsr olunmuş tədbirlərin (xatirə gecələri, dəyirmi masalar, foto-rəsm sərgiləri, inşa yazı müsabiqələri, şahidlərlə görüş və s.) keçirilməsi, milli azadlıq uğrunda mübarizəyə həsr olunmuş sənədli və bədii filmlərin nümayişinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, Rayon Gənclər və İdman İdarəsi, orta ümumtəhsil müəssisələri, mədəniyyət müəssisələri, Uşaq və Gənclərin Yaradıcılıq Mərkəzləri | V.İsmayılov<br>E.Dadaşov<br>Q.Bayramov | Fevral 2016-cı il |
| 3. | Goradil qəsəbəsi 2 nömrəli ETK-nin pansionatında məskunlaşan Xocalı rayonundan olan şəhid ailələrinə humanitar yardımların göstərilməsi | Rayon İcra Hakimiyyəti, Binəqədi Bələdiyyəsi, Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayon sektoru | V.İsmayılov<br>E.Dadaşov<br>S.Cabbarlı<br>A.Məmmədov | 24 fevral 2016-cı il |

| | | | | |
|---|---|---|---|---|
| 4. | Xocalı soyqırımı faciəsinin ildönümü ilə əlaqədar Məlumat Saatının keçirilməsi | Rayon İcra Hakimiyyəti<br>BDU-nun Azərbaycan tarixi kafedrası | E.Dadaşov<br>Əziz Boran | 25 Fevral 2016-cı il |
| 5. | Rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi | Rayon İcra Hakimiyyəti | İ.Süleymanov<br>R.Göyüşov<br>Y.Hüseynov | 26 fevral 2016-cı il saat:17-00 |
| 6. | Xocalı soyqırımı günü ilə əlaqədar rayon ərazisində dövlət bayraqlarının endirilməsi | Rayon İcra Hakimiyyəti,<br>Qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər,<br>Bələdiyyələr,<br>Binəqədi rayon MKTB | V.İsmayılov<br>R.Göyüşov<br>E.Rəhimov<br>A.Məmmədov | 26 fevral 2016-cı il |
| 7. | Rayon ərazisində fəaliyyət göstərən dini qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimlərinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti,<br>Dini icmalar | V.İsmayılov<br>E.Dadaşov<br>R.Həsənov | Fevral 2016-cı il |
| 8. | 26 fevral tarixində rayonun təhsil müəssisələrində ilk dərsin Xocalı soyqırımına həsr edilməsi | Rayon İcra Hakimiyyəti,<br>Orta ümumtəhsil müəssisələri | V.İsmayılov<br>E.Dadaşov | 26 fevral 2016-cı il |
| 9. | Xocalı soyqırımının ildönümü ilə əlaqədar keçirilən tədbirlərin və görülən işlərin KİV-də işıqlandırılması | Rayon İcra Hakimiyyəti | V.İsmayılov<br>E.Dadaşov | Fevral 2016-cı il |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** **Vüsar İsmayılov**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** **Elman Dadaşov**